# "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli qərarına əlavə və dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 16 dekabr tarixli 744-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 13 fevral tarixli 154 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il , №8, maddə 783; 2006-cı il, №5, maddə 472; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı) ilə təsdiq edilmiş "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 5.2-ci bəndinin dördüncü abzasında "yeyinti" sözünün əvvəlinə "qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa," sözləri əlavə edilsin, 5.6-cı və 14.4-cü bəndlərindən ", "ekoloji təmiz" " sözləri çıxarılsın.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**
**Y.EYYUBOV**

Bakı şəhəri, 30 mart 2009-cu il
№ 48